# Ana dilimiz milli varlığımız və qürur mənbəyimizdir

**Zəngin dil mədəniyyətinə sahib olan xalq böyük gələcəyə malikdir. Azərbaycan dili türk dilləri ailəsində özünəməxsus yeri, dərin kökləri, böyük ənənəsi olan çox zəngin və möhtəşəm dildir. Onun saflığını göz bəbəyi kimi qorumaq, milli sərvətimizin keşiyində dayanmaq hər bir vətəndaşın müqəddəs borcudur. Milli varlığımızın, birliyimizin, mədəniyyətimizin ən davamlı daşıyıcısı ana dilimizdir. Bütün dəyərlər, insanların tarixboyu ərsəyə gətirdikləri maddi və mənəvi nailiyyətlər dilin işığında yaranır.**







21 Fevral - Beynəlxalq Ana Dili Günü hər kəsə doğma olan bu milli-mənəvi sərvətin varlığını hiss etmək, onunla qürur duymaq, inkişaf etdirmək hüququ olduğunu bir daha xatırladır. Bakı şəhəri Nəsimi rayonundakı Milli Qəhrəman Tahir Həsənov adına 23 nömrəli məktəbdə Beynəlxalq Ana Dili Gününə həsr olunmuş "Milli-mənəvi kimliyimiz - dilimizdir" adlı ədəbi-bədii gecəsinin keçirilməsi də bu məqsədə xidmət edirdi.

Tədbirdə ana dili məsələsi, onun işlənməsi, qorunması, inkişafı, yaxın regionlardakı dillərlə rəqabəti barədə geniş danışılmışdır. Gecəni məktəbin direktoru Nigar Hənifəyeva açaraq gələn qonaqları, müəllimləri və valideynləri salamlamışdır. Sonra ana dilimizin zənginliyi, inkişafı, qorunması ilə bağlı fikirlərini söyləmişdir. Bildirmişdir ki, hər bir millətin dili onun varlığını sübut edən, onu yaşadan abidədir. Zaman-zaman tarixin sınaqlarına məruz qalan, olmazın çətinliklərlə üzləşən bu dil xalqımızın böyüklüyü və müdrikliyi sayəsində bugünümüzə üzüağ, alnıaçıq gəlib çıxmışdır. Yüksək mənəvi dəyərlərə malik olan bu xəzinəni qorumaq, onun əbədiyaşar olmasını təmin etmək hər bir şəxsin müqəddəs borcudur. Bu gün dövlət dilimiz olan Azərbaycan dilinin hərtərəfli inkişafı, dünyanın ən mötəbər tribunalarından səslənməsi Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlıdır. Dünənimizin, bu günümüzün və xoşbəxt sabahımızın əsasında Azərbaycan dili dayanır. Ana dili millətin mənəvi diriliyi, ruhun qidasıdır.

Nigar Hənifəyeva Prezident İlham Əliyevin ana dilimizin qorunmasına və inkişafına böyük həssaslıqla yanaşdığını xüsusi vurğulamışdır. Azərbaycan Respublikasının dövlət dili olan Azərbaycan dilinin dünya dilləri sırasında özünəməxsus yeri olduğunu söyləmişdir.

Bu gün Prezident İlham Əliyev tərəfindən ölkəmizdə mükəmməl dil siyasəti həyata keçirilir. Parlamentdə dil haqqında qanun qəbul edilib. Dövlət Dil Komissiyası fəaliyyət göstərir. Bütün bunlar ölkə rəhbərinin ana dilinə dövlət səviyyəsində xüsusi diqqət və qayğısını aydın şəkildə ifadə edir.

Bu il fevralın 7-də tarixin ən qüdrətli Azərbaycanı yeni dövrə qədəm qoydu. Qalib Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev Ulu Öndərin layiqli davamçısı olduğunu bir daha təsdiq etdi.

Tədbirdə ana dilimizin zənginliyindən, qədimliyindən söhbət açıldı, milli dəyərlərimizlə yanaşı, ana dilimizin gözəlliyinin, saflığının qorunmasının və inkişaf etdirilməsinin vacibliyi vurğulandı, milli dil əmanətinə sadiqlikdən, vətəndaş məsuliyyətindən danışıldı. Ədəbi-bədii gecədə Məktəbəqədər və Ümumi Təhsil üzrə Dövlət Agentliyinin nümayəndəsi Könül Məmmədli, Xalq şairi Vahid Əziz, respublikanın Əməkdar artisti, bədii qiraət ustası Ağalar Bayramov, Yazıçılar Birliyinin və Jurnalistlər Birliyinin üzvü, şairə-publisist Azadə Novruzova, Yazıçılar Birliyinin üzvü, yazıçı-marketoloq, naşir, iqtisadçı-doktorant Çinarə Köçəriyeva iştirak edirdilər.

"Ana dilimiz milli sərvətimizdir" çağırışını səsləndirən 8A sinfinin şagirdləri klassiklərimizin doğma dilimizə həsr edilən şeirlərini söylədi, ədəbi-bədii kompozisiyalar nümayiş etdirdilər. Tədbirin yüksək səviyyədə təşkilində önəmli rolu olan məktəbin Azərbaycan dili və ədəbiyyat müəllimi Bikə Nəcəfovanın şagirdlərə aşıladığı ana dili sevgisi xüsusilə diqqəti cəlb etdi. Tədbirə gələn qonaqlar 8A sinfinin gözəl, qəlboxşayan çıxışlarını yüksək qiymətləndirdilər, onların ana dilinə olan ehtiram və məhəbbətlərini qürur hissi ilə alqışladılar.

Qeyd edildi ki, tarixin əmanəti və milli varlığımızın əsası olan ana dilini qoruyub gələcək nəslə yetirmək birgə missiyamızdır.

*"Azərbaycan"*